“Silahlı Qüvvələrin yaradılması Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini təsdiq edən, onu nümayiş etdirən amillərdən biridir”.

Heydər ƏLİYEV




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 24 iyun 2015-ci il № 48 (1964) Qiyməti 25 qəpik


## Rəsmi xronika

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Latviya Respublikasının yeni seçilmiş Prezidenti Raymonds Veyonis ilə görüşüb.***

***Dövlətimizin başçısı Raymonds Veyonisi Latviya Respublikasının Prezidenti seçilməsi münasibətilə təbrik etdi, ona ali dövləti fəaliyyətində uğurlar arzuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Latviya arasında ikitərəfli münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirdi.***

* * *

***✓İyunun 22-də Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini qəbul edib.***

***Görüş iştirakçılarını salamlayan dövlətimizin başçısı bildirib ki, son vaxtlar İslam Əməkdaşlıq Təşkilatı ilə bizim əlaqələrimiz daha da inkişaf edir. “Aprel və may aylarında Ciddədə və Bakıda təşkilatın baş katibi ilə mənim görüşlərim olmuşdur. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın uğurlu inkişafını qeyd edir, Azərbaycanda gedən işlərə çox yüksək qiymət verir. Biz də təşkilatın fəal üzvü kimi çalışırıq ki, ölkələr arasındakı həmrəyliyi daha da gücləndirək. Ümumiyyətlə, Azərbaycanın mövqeyi bundan ibarətdir ki, İslam həmrəyliyi daha da möhkəmlənməlidir və müsəlman ölkələri bir-birinə daha da böyük dərəcədə dəstək verməlidir. Xüsusilə ölkələrimizi narahat edən məsələlərdə bu dəstəyə daha da böyük ehtiyac var. Biz bu dəstəyi görürük, xüsusilə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində Azərbaycanın mövqeyi müsəlman ölkələri tərəfindən dəstəklənir. İslam Əməkdaşlıq Təşkilatı isə dəfələrlə münaqişə ilə bağlı reallığı, ədaləti, beynəlxalq hüququ və Azərbaycanın mövqeyini əks etdirən qətnamələr qəbul etmişdir. Bu dəstəyə görə təşkilatın üzvü olan ölkələrə bir daha təşəkkürümü bildirmək istəyirəm.***

***Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmaması region üçün ən böyük təhlükə mənbəyidir. Bildiyiniz kimi, uzun illərdir ki, ölkəmizin ərazi bütövlüyü Ermənistan tərəfindən pozulub, bir milyondan çox azərbaycanlı öz doğma torpağından qaçqın və köçkün vəziyyətinə düşmüşdür, xalqımıza qarşı Xocalı soyqırımı törədilmişdir. İşğal edilmiş torpaqlarda bütün binalar dağıdılıb, yerlə-yeksan edilib. Erməni vəhşiləri məscidlərimizi də dağıdıb, yerlə-yeksan ediblər. Amma biz o torpaqlara qayıdandan sonra bütün tarixi, dini abidələrimizi bərpa edəcəyik. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq norma və prinsipləri çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz həllini tapmalıdır. Ermənistan isə beynəlxalq hüquq normalarını kobudcasına pozur və BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmir. Ancaq haqq, ədalət, o cümlədən tarixi ədalət və beynəlxalq hüquq bizim mövqeyimizi dəstəkləyir. Ədalət bərpa olunacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək”.***

**AZƏRTAC-ın materialları əsasında**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# “Bizim ordumuz bizim qürurumuzdur”



***Bu yaxınlarda cəbhə bölgəsinə ezam edildim. Məqsəd ön xətdə düşmənin növbəti təxribatının qarşısını almış Vətən oğullarının şücaəti barədə yazı hazırlamaq idi. Hadisə ilə yaxından tanış olduqdan sonra bir daha ordumuzla, Vətənə ləyaqətlə xidmət edən zabit və əsgərlərimizlə qürur hissi keçirdim. Bəs, təmas xəttində nə baş vermişdi?***

Ötən il dekabrın son günlərində, yəni Yeni il ərəfəsində Ermənistan ordusunun silahlı bölmələri mövqelərimizə soxularaq diversiya törətməyə cəhd göstərmişdi. Ancaq ayıq-sayıq döyüşçülərimiz düşməni vaxtında aşkar edərək, xəbis planlarını gerçəkləşdirməyə imkan verməmişdilər. Ermənistan ordusunun bir hərbi qulluqçusu - baş çavuş Arsen Baqdasaryan isə bizim cəsur zabitlərimiz Şərif Vəliyev və Faiq Əhmədov tərəfindən zərərsizləşdirilərək əsir kimi ələ keçirilmişdi.

Cəbhə bölgəsində son vaxtlar düşmənin təxribatlarının qarşısının hərbçilərimiz tərəfindən alınması bir daha göstərir ki, 97-ci ildönümünü qeyd etdiyimiz Azərbaycan Silahlı Qüvvələri döyüş hazırlığı sahəsində böyük nailiyyətlərə imza atıb və təsadüfən Cənubi Qafqaz bölgəsinin ən qüdrətli ordusu hesab edilmir.

Məlum olduğu kimi, Azərbaycan Ordusunun yaradılması 1918-ci ilin 26 iyununa, Azərbaycan Xalq Cümhuriyyəti dövrünə təsadüf edir. Həmin dövrdə ölkəmizin təhlükəsizliyini təmin etməkdən ötrü Əlahiddə Azərbaycan Korpusu formalaşdırılmışdı. Cümhuriyyət ordusu qısa, lakin mürəkkəb və şərəfli döyüş yolu keçmişdir. Azərbaycan Ordusunun mətin hissələri şanlı Türkiyənin ordu korpusunun dəstəyilə ölkəmizin ürəyi hesab olunan Bakını bolşevik-daşnak qüvvələrindən təmizləmiş, Qarabağda meydan sulayan erməni dəstələrinə sarsıdıcı zərbələr endirmişdi.

Keçən əsrin 90-cı illərində xalqımız ikinci dəfə müstəqilliyini əldə etdikdən sonra dövlətimiz böyük çətinliklərlə üzləşmişdi. Havadarlarına arxalanan Ermənistanın silahlı dəstələri torpaqlarımızın 20 faizini işğal etməyə nail oldu.

Keçmiş ölkə rəhbərliyinin dövləti idarəetmə təcrübəsinin olmaması, Ermənistanla müharibədə aydın strateji xətt yeridə bilməməsi, müharibə aparan ölkədə ictimai-siyasi sabitliyin olmaması ordu hissələrində də mənəvi-psixoloji iqlimə mənfi təsir göstərmişdi. Hərbi kollektivlərdə intizamsızlıq baş alıb gedir, dərəbəylik, mənəm-mənəmlik, özbaşınalıq hökm sürürdü. Bütün bunların nəticəsi kimi cəbhədə uğursuzluqlar baş verirdi.

1993-cü il iyunun 15-də ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə ikinci dəfə qayıtdıqdan sonra vəziyyət tədricən dəyişdi. Onun 1993-cü il noyabrın 2-də radio və televiziya ilə xalqa tarixi müraciətindən sonra Ermənistan-Azərbaycan cəbhəsində də dönüş yarandı.

Həmin dövrdə baş vermiş məşhur Horadiz əməliyyatını xatırlamamaq mümkün deyil. O zaman, yəni 1993-cü ilin payızında Azərbaycan Prezidenti Heydər Əliyevin xalqa müraciətindən sonra vətəndaşlarımızın könüllü ordu sıralarına yazıldığını, dekabr-yanvar aylarında əks hücuma keçərək erməni silahlı birləşmələrini bir gecədə 25 kilometr geri çəkilməyə məcbur etdiyini və Füzuli rayonunun Horadiz qəsəbəsi də daxil olmaqla 22 yaşayış məntəqəsini düşməndən geri aldığını yaxşı xatırlayırıq. Bu əməliyyat əslində Azərbaycanın hərb tarixində özünəməxsus əhəmiyyətə malikdir.

Ancaq müdrik dövlət rəhbərimiz yaxşı bilirdi ki, ordumuzda köklü hərbi islahatlara böyük ehtiyac var. Atəşkəs rejimi əldə edildikdən sonra Azərbaycan rəhbərliyi Silahlı Qüvvələrdə özünü doğrultmayan ərazi özünümüdafiə dəstələrini ləğv etməyə, müasir standartlara cavab verən, vahid komandanlıq prinsipi ilə idarə olunan intizamlı ordu bölmələri yaratmağa başladı.

Hazırda iqtisadi qüdrətini artıran ölkəmizdə ordu quruculuğu dövlət rəhbərliyi səviyyəsində ən çox önəm verilən strateji əhəmiyyətli məsələlərdəndir. Azərbaycanın əzəli torpaqları Ermənistan silahlı birləşmələrinin işğalı altındadır və bu ərazilərimizin azad edilməsi Silahlı Qüvvələrin qarşısında duran başlıca vəzifədir. Məhz bu səbəbdən ölkə rəhbərliyi ordu quruculuğunu prioritet vəzifə elan edib.

Son illərdə Silahlı Qüvvələrimizin təminat və təchizatını müasir tələblər səviyyəsinə qaldırmaq məqsədilə görülən işlər, sözün əsl mənasında, ordumuzun dövlət qayğısı ilə əhatə olunduğunu əyani surətdə nümayiş etdirir.

Dövlətimizin və müstəqilliyimizin dayağı olan Azərbaycan Silahlı Qüvvələri bu gün ən müasir silah və texnika ilə silahlanıb, yüksək təchizata malikdir, güclü intizama və döyüş hazırlığına nail olmuş qüdrətli güc strukturudur. Təsadüfi deyil ki, Azərbaycan Ordusu beynəlxalq reytinq təşkilatları tərəfindən ən güclü ordular sırasına aid edilir.

Ümummilli liderimizin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev dəfələrlə vurğulayıb ki, bizim məqsədimiz güclü ordu yaratmaqdır.

Dövlət başçısının Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində hərbi təhsil müəssisələrinin buraxılışına həsr olunmuş təntənəli mərasimdə vaxtilə söylədiyi fikir nə qədər aktual səslənir: "Orduya diqqət Azərbaycan dövlətinin prioritetidir. Mən çox şadam ki, cəmiyyət də bu təşəbbüsləri alqışlayır. Bizim ordumuz bizim qürurumuzdur. Bizim ordumuz müstəqilliyimizi şərtləndirən amildir. Biz bundan sonra da orduya, ordu quruculuğuna, hərbçilərə olan diqqəti artıracağıq, bu diqqəti göstərəcəyik".

Hazırda Vətən oğulları Silahlı Qüvvələrimizin müxtəlif qoşun növlərində xidmət edərək, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına uyğun hərbi peşəkarlıqlarını artırmaqla məşğul olur, Azərbaycan torpaqlarını işğal etmiş Ermənistan silahlı birləşmələri ilə təmas şəraitində ayıq-sayıq döyüş növbəsi aparırlar. Bir sözlə, müstəqil dövlətimizin və dövlətçiliyimizin keşiyində möhkəm dayanırlar. Eyni zamanda Azərbaycan dövləti öz ordusunun daha da qüdrətlənməsi üçün lazım olan bütün tədbirləri həyata keçirir.

Silahlı Qüvvələrimizin yaradılmasının 97-ci ildönümünü qeyd etdiyimiz vaxtda iftixar hissilə deyə bilərik ki, Azərbaycanın qüdrətli ordusu var və o, hər bir vətənsevər azərbaycanlının qürur və güvənc yeridir. Doğma ordumuz işğal altına düşmüş əzəli torpaqlarımızı erməni silahlı birləşmələrindən birdəfəlik azad etməyə qadirdir və inanırıq ki, Ali Baş Komandanın əmrilə döyüş meydanında öz sözünü deyəcəkdir.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Müdafiə Nazirliyində kollegiya iclası keçirilib

***İyunun 20-də Müdafiə Nazirliyində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin rəhbər heyətilə 2015-ci ilin qış tədris dövrünün yekunlarına həsr olunmuş kollegiya iclası keçirilib.***



Toplantıda Müdafiə nazirinin müavinləri, Silahlı Qüvvələrin növləri və qoşun qismləri komandanları, birlik komandirləri, Müdafiə Nazirliyinin baş idarə, idarə və xidmət, xüsusi təyinatlı təhsil müəssisələrinin rəisləri və digər məsul zabitlər iştirak ediblər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, orduda aparılan islahatların davam etdirilməsi, hərbi hissələrin döyüşə hazırlıq vəziyyəti, hərbi qulluqçuların mənəvi-psixoloji durumu, nizam-intizamın gücləndirilməsi, şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması sahəsində görülən işlər haqqında geniş məruzə ilə çıxış edib.

Kollegiya iclasında hesabat dövründə istiqamətlər üzrə görülən fəaliyyətlərlə bağlı vəzifəli şəxslərin məruzələri dinlənilib və müvafiq tapşırıqlar verilib.

Müdafiə naziri yekunda Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrin inkişafını əsas prioritet məsələ hesab etdiyini bir daha diqqətə çatdırıb və bunun da hərbçilər üçün böyük etimad olduğunu xüsusi vurğulayıb. Müdafiə naziri bildirib: "Etimadı doğrultmaq üçün hamımız xalq qarşısında məsuliyyətimizi dərindən dərk etməli, torpaqlarımızın azad edilməsi məqsədilə gecə-gündüz çalışaraq hər an döyüşə hazır vəziyyətdə olmalıyıq. Bizim başqa yolumuz yoxdur, çünki bu, hər birimiz üçün tarixi məqamdır".

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto çavuş Vüsal HƏMİDOVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***22 iyun 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 92 dəfə pozub.

Ermənistan Respublikasının Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərindən Tovuz rayonunun Əlibəyli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Göyarx, Ağdam rayonunun Şuraabad, Şirvanlı, Qaraqaşlı, Sarıcalı, Cəvahirli, Şıxlar, Mərzili, Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Alxanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***23 iyun 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 83 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərindən Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərindən Tovuz rayonunun Əlibəyli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Talış, Tərtər rayonunun Göyarx, Ağdam rayonunun Şuraabad, Şirvanlı, Qaraqaşlı, Sarıcalı, Cəvahirli, Şıxlar, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

# BMT-nin ekspertləri Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ona bitişik ərazilərinin işğal olunması faktını qeyd ediblər

İyunun 16-17-də Cenevrə şəhərində BMT-nin Biznes və İnsan Hüquqları üzrə İşçi Qrupu və təşkilatın məcburi köçkünlərin insan hüquqları üzrə xüsusi məruzəçisi Çaloka Beyani Azərbaycana səfərlərinin yekunlarına dair hesabatlarını BMT İnsan Hüquqları Şurasının 29-cu sessiyasına təqdim ediblər.

Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsi və digər beynəlxalq təşkilatlar yanındakı daimi nümayəndəliyindən AZƏRTAC-a bildiriblər ki, İşçi Qrupun hesabatının təqdimatı zamanı qrupun sədri və məruzəçisi Maykl Addo səfərin yüksək səviyyədə təşkilinə görə Azərbaycan Hökumətinə təşəkkürünü bildirib.

İşçi Qrup öz hesabatında son illər ərzində Azərbaycanda iqtisadi inkişaf, yoxsulluğun azaldılması, işsizliyin aradan qaldırılması, habelə korrupsiyaya qarşı mübarizə sahələrində mühüm nailiyyətlərin əldə edildiyini vurğulayıb. Bununla yanaşı, ölkəmizdə biznes və insan hüquqlarının tam təmin olunmasının qarşısında duran əsas maneənin məhz Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı ərazilərinin işğal edilməsi nəticəsində öz yurd-yuvalarını tərk etmiş qaçqın və məcburi köçkünlər məsələsi olduğunu qeyd edib. Ermənistan nümayəndə heyətinin etirazına cavab olaraq M.Addo Ermənistan tərəfini BMT Baş Assambleyasının 62243 saylı "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnaməsini nəzərdən keçirməyə çağırıb.

BMT-nin xüsusi məruzəçisi Ç.Beyani hesabatın təqdimatı zamanı Azərbaycanda məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşması, xüsusilə onların yaşayış yerləri ilə təmin olunması sahəsindəki tərəqqini qeyd edib və hökumətin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirib. Xüsusi məruzəçi hesabatda məcburi köçkünlərin hüquqlarının tam bərpa olunması üçün ilk növbədə Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll edilməli olduğunu qeyd edib. Bu xüsusda, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrinin, habelə BMT Baş Assambleyasının 62243 (2008) saylı "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnaməsinin yerinə yetirilməsinə çağırıb. O, eyni zamanda, azərbaycanlı məcburi köçkünlərin məsələsini xüsusi diqqət altında saxlayacağını bildirib və bu istiqamətdə Azərbaycan hökuməti ilə mövcud konstruktiv əməkdaşlığı bundan sonra da davam etdirəcəyini vurğulayıb.

Xatırladaq ki, BMT-nin məcburi köçkünlərin insan hüquqları üzrə xüsusi məruzəçisi Ç.Beyani 2014-cü il mayın 18-24-də, Biznes və İnsan Hüquqları üzrə İşçi Qrupu isə həmin il avqustun 18-27-də Azərbaycana səfər edib.

BMT-nin xüsusi məruzəçisi və Biznes və İnsan Hüquqları üzrə İşçi Qrupu BMT İnsan Hüquqları Şurasının xüsusi prosedurları mexanizminin tərkib hissəsidir. Müstəqil ekspertlərdən ibarət olan xüsusi prosedurlar institutu BMT İnsan Hüquqları Şurasının müstəqil faktaraşdırıcı və monitorinq mexanizmi hesab olunur.

# İtaliyanın "L'Opinione" xəbər portalı Avropa Məhkəməsinin Azərbaycanın xeyrinə elan etdiyi qərardan yazır

İtaliyanın "L'Opinione" xəbər portalında Avropa Məhkəməsində "Çıraqov və digərlərinin Ermənistana qarşı" işi üzrə elan edilmiş qərarla bağlı yazı yerləşdirilib.

Yazıda qeyd olunur ki, 2005-ci ilin aprelində Laçın rayonundan olan 6 azərbaycanlı məcburi köçkün Avropa Məhkəməsinə müraciət edərək doğma yurdlarına qayıtmaq, mülkiyyətlərindən istifadə etmək və öz evlərində yaşamaq imkanından məhrum olunmaları barədə şikayət ediblər. İddiaçıların "İnsan hüquq və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyasında təsbit olunmuş bir sıra hüquqlarının Ermənistan tərəfindən pozulduğunu əsas gətirən məhkəmə onların xeyrinə qərar verib.

Məqalədə bildirilir ki, məhkəmə 1992-ci ilin mayında Laçın rayonuna qarşı hərbi hücum nəticəsində Azərbaycan vətəndaşlarının həmin rayonu tərk etməyə məcbur edildiyini vurğulayıb. Bəyan edilib ki, Dağlıq Qarabağ, Laçın rayonu və ətraf rayonlar hazırda işğal altındadır və həmin vəziyyətə münasibətdə Haaqa və Cenevrə konvensiyalarının müvafiq müddəaları tətbiq edilir. Eyni zamanda, Ermənistanın beynəlxalq birlik tərəfindən tanınmayan qondarma "Dağlıq Qarabağ Respublikası" üzərində həlledici və əhəmiyyətli təsirə malik olduğu vurğulanıb. Məhkəmə bildirib ki, münaqişə zamanı öz yurdlarından didərgin düşməyə məcbur qalmış Azərbaycan vətəndaşlarının hüquqlarının bərpa olunmasına görə Ermənistan məsuliyyət daşıyır.

Yazıda Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənovun Dağlıq Qarabağ münaqişəsinin həllinə dair fikirləri də yer alıb. O, təəssüflə qeyd edib ki, bütün cəhdlərə baxmayaraq, problemin çözümünə hələ də nail olunmayıb.

Məqalədə məsələ ilə bağlı Azərbaycanın İtaliyadakı səfiri Vaqif Sadıqovun fikirləri də yer alıb: "Bu qərar tarixi əhəmiyyətə malikdir. Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində bir milyon azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsinin, onların hüquqlarının pozulmasının beynəlxalq birlik tərəfindən tanınması önəmlidir".

**AZƏRTAC**

*Cəbhə bölgəsindən reportaj*

# Vətən sənə əmanət, Azərbaycan əsgəri!

*"Bizim ordumuz, Silahlı Qüvvələrimiz atəşkəsin pozulmasının, ərazimizə hücum edənlərin qarşısını almağa hər an, hər dəqiqə, hər saat hazır və layiqli cavab verməyə qadir olmalıdır. Hər bir hissədə sayıqlıq yüksək səviyyəyə qaldırılmalıdır".*

**Heydər ƏLİYEV**





***Maşın asfalt yoldan keçərək torpaq yola çıxır. Bu anda maşını idarə edən əsgər sürəti azaltmağa başlayır.***

Düzənlik ərazilərdə salınmış bir-birinə yaxın kəndlərin insanları artıq erməni işğalçılarının atəş səslərinə çoxdan alışıblar. Heç bir güllə səsi onları qorxutmur, doğma ocaqlarını nə vaxtsa tərk etməyi ağıllarına belə gətirmirlər. Çünki öndə - səngərdə Vətənin keşiyində cəngavər Azərbaycan əsgəri dayanıb. Mərd oğullara güvənən insanlar gündəlik həyatlarının ahəngdarlığını pozmadan yaşayır və çalışırlar. Hərbi hissənin zabiti mayor Vidadi Əhmədov bildirir ki, cəbhənin bütün istiqamətlərində olduğu kimi, burada da yerləşən bölüyümüzün döyüşçüləri Vətənin igid oğullarıdır. Düşmənin daha çox atəşkəsi pozduğu mövqelərimizdən olan bu ərazilər gecə-gündüz hərbçilərimizin nəzarəti altındadır. Onların sayıqlığı, əzmkarlığı sayəsində müdafiə möhkəm qurulur, düşmənin atəş nöqtələri susdurulur.



Bölük komandiri baş leytenant Elşad Quliyev Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini 2010-cu ildə bitirib. 1 ildir ki, xidmət yeri ön xətdir. Mayor V.Əhmədov gənc zabit haqqında söyləyir ki, cəsur, iradəli, qorxmaz zabitlərimizdəndir. Harada təhlükə olarsa, Elşad özünü ora birinci atır. Bu insanda qorxu hissi yoxdur.

E.Quliyev danışmağı çox sevmədiyini deyir, iş görmək, nəticə göstərmək lazımdır. Görürsünüz, tutduğumuz mövqe düşmənlə çox yaxın məsafədədir. Daim sayıqlığımızı itirmədən müdafiəmizi gücləndiririk. Dəfələrlə bölüyümüzün əsgərləri düşmənin təxribat-diversiya qruplarının basqınlarının qarşısını vaxtında alıblar. Keçən ilin iyul-avqust aylarında cəbhə boyu bütün istiqamətlərdə Ermənistan Silahlı Qüvvələrinin hücum cəhdlərinin qarşısı Azərbaycan əsgərinin gücü ilə alındı. Erməni işğalçıları ordumuzun gücündən sarsılaraq, qorxaqlığını büruzə verdi.

Manqa komandiri əsgər Emin Məmmədli Vətənimizin müdafiəsinə könüllü gələn döyüşçülərdəndir. Ərazinin hər dağına, daşına bələd olan Emin döyüşlərdə göstərdiyi fədakarlığı ilə yoldaşlarına nümunədir. Komandirlərinin hörmət və rəğbətini qazanıb. Emin deyir ki, məcburi qaçqın və köçkün həyatı yaşayan həmvətənlərimizin tezliklə ata-baba yurdlarına qayıtmalarını görmək ən müqəddəs arzusudur. "Fotolardan, televiziya ekranlarından gördüyüm Şuşamızı, Laçınımızı və digər ərazilərimizi qarış-qarış gəzmək, canlı olaraq görmək istəyirəm", - deyir manqa komandiri.

Döyüş növbəsi aparan əsgərlərdən əslən Hacıqabul rayonundan olan Tərlan İbadov və qusarlı Kamran Manqolov hərbi xidmətlərini başa vurmaq üzrədirlər. Hər iki əsgər xidmət dövründə böyük təcrübə qazanıb. Bütün silah növlərindən istifadə etməyi bacarırlar. Onlar deyirlər ki, Ali Baş Komandan cənab İlham Əliyev orduya döyüş əmri verərsə, Hərbi Anda sadiq qalaraq, Vətənimizi yadelli işğalçılardan qorumağa hazırdırlar.



Əsgər Fəxri İmanov bu gün erməni qəsbkarlarının işğalında olan Laçın rayonunda dünyaya göz açıb. Öyrənirəm ki, doğma el-obası haqqında əzizlərindən eşidib. 11 aydır Vətən torpağının keşiyini çəkən Fəxri Azərbaycan Texniki Universitetinin məzunudur. Ən böyük arzusu doğulduğu Laçına qayıtmaqdır.

Tərlanın, Kamranın, Fəxrinin arzusuna qoşulan əsgərlər Anar Hacıyev, Elman Əliyev, Murad İbadov, Rüfət Babayev və başqaları hərbi xidmət dövründə - səngərdə daha da mətinləşdiklərini bildirirlər.

Hərbçilərimizin döyüş postunda, səngərdə xidmət anını fotoaparatın yaddaşına köçürməkdə bizə yardımçı olan əsgər İsgəndər İbrahimov isə 9 aydır Bakı şəhərindən hərbi xidmətə çağırılıb. Keçən il Azərbaycan Dövlət İqtisad Universitetinin magistraturasına qəbul olunub. Hərbi xidmətini başa vurduqdan sonra təhsilini davam etdirəcəyini deyir. Xidmət etdiyi hərbi bölmədə nümunəvi, təşkilatçı əsgər kimi seçilir. Andiçmə mərasimlərinin, əlamətdar tarixi günlərə həsr olunmuş tədbirlərin keçirilməsində fəallıq göstərir.

"Vətən sənə əmanət, Azərbaycan əsgəri", - deyib gənc döyüşçülərdən uzaqlaşırıq.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyinin nümayəndələri Qırmızıbayraqlı Baltik donanması sualtı qayıq heyətlərinin xatirə abidəsinin açılışında iştirak ediblər






***<u>Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, Müdafiə Nazirliyinin nümayəndələri Böyük Vətən müharibəsi illərində Baltik sularında həlak olmuş Qırmızıbayraqlı Baltik donanması sualtı qayıq heyətlərinin xatirə abidəsinin açılışına həsr olunmuş təntənəli mərasimdə iştirak edib.</u>***



Nümayəndələrimiz Leninqrad vilayəti Sosnovıy Bor rayon rəhbərliyi və ictimaiyyəti tərəfindən hörmətlə qarşılanıb. Sosnovıy Bor şəhər dairəsinin rəhbəri və şəhərin meri dəvətlərini məmnuniyyətlə qəbul edərək, rayonun tarixində əlamətdar hadisə olan bu mərasimə nümayəndələr göndərdiklərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlıqlarını bildiriblər.

Ənənəvi "Xatirə və Hüzn günü" ərəfəsində "Vətən müdafiəçilərinə" memorial kompleksinə toplaşmış yüzlərlə yerli sakin və bir çox ölkələrdən gəlmiş qonaqlara əvvəlcə bu müqəddəs məkan haqqında ətraflı məlumat verilib.

Qeyd olunub ki, burada müharibə illərində Oranienbaum platstdarmının müdafiəsi zamanı həlak olmuş döyüşçülər dəfn edilmiş, sonra isə onların qalıqları digər qardaşlıq qəbiristanlıqlarına köçürülmüşdür. 1975-ci ildə Fin körfəzinin Qoqland, Nerva, Sommers, Böyük və Kiçik Tyüters adalarında həlak olmuş Sovet dənizçilərinin qalıqları buraya gətirilərək yenidən dəfn edilmiş, Qırmızıbayraqlı Baltik donanmasının Böyük Vətən müharibəsində həlak olmuş 12 sualtı qayıq heyətinin adları yazılmış xatirə lövhələri bu ziyarətgahda yerləşdirilmişdir.

1995-ci ildə Qələbənin 50 illiyi ərəfəsində bu ərazi xeyli genişləndirilmiş, Naməlum əsgərin qəbri, "Əbədi məşəl", müharibədən qayıtmayan yerli vətəndaşların adları yazılmış "Xatirə qayaları" da memorial kompleksə daxil edilmişdir. Bu il isə Rusiya Federasiyası sualtı dənizçilər hazırlayan Tədris Mərkəzi rəhbərliyinin və hərbi tarixçi İqor Qriqoryeviç Alepkonun təşəbbüsü ilə burada Dəniz Şöhrəti muzeyi yaradılmış və ekspozisiyada sualtı gəmilər tarixinə və müharibə illərində Baltik sularında həlak olmuş qəhrəmanların həyat və döyüş yoluna geniş yer ayrılmışdır.

Şəxsi heyətinin əksəriyyətini sualtı dənizçilər təşkil edən Baltik donanması Leninqradın müdafiəsində mühüm rol oynamışdır. Yüzlərlə insanın açılışına toplaşdığı yeni abidə 39 sualtı qayıq heyətinin xatirəsinə ucaldılmış və mərmər divarlar üzərindəki qranit lövhələrdə 1424 nəfər sualtı dənizçinin adları qızıl hərflərlə yazılmışdır. Onlardan yeddi nəfəri Azərbaycan Respublikasının vətəndaşıdır.

Sosnovıy Bor şəhər dairəsinin başçısı Dmitriy Vitalyeviç Pulyayevski çıxış edərək tədbir iştirakçılarını və qonaqları salamladıqdan sonra mərasimi açıq elan edib. Rusiyanın Dövlət himni səsləndirilib.

Şəhər meri V.B.Sadovski, hərbi tarixçi İ.Q.Alepko, Rusiya Federasiyasının Dövlət mükafatı laureatı, şəhərin fəxri vətəndaşı Y.Q.Savçenko, Leninqrad vilayətinin vitse-qubernatoru N.P.Yemelyanov, Kirov vilayəti hökuməti sədrinin müavini A.A.Qalitskiy, Kareliya Respublikasından nazir müavini E.A.Şoroxov və neçə-neçə general, admiral, veteran çıxış edib.



Xarici ölkələrdən gəlmiş nümayəndələr adından çıxış edən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbaninin çıxışı hərarətlə qarşılanıb. O deyib ki, Böyük Vətən müharibəsində həlak olan keçmiş Sovet İttifaqı vətəndaşlarının adları və qəhrəmanlıqları ölməzdir. Azərbaycan xalqı da onları heç vaxt unutmur və gənclərimiz atalarımızın, babalarımızın qəhrəmanlıq ənənələri ruhunda tərbiyələndirilir. Faşizm üzərində qələbənin qazanılmasında həm ön, həm də arxa cəbhədə Azərbaycan xalqının müstəsna xidmətləri vardır. Müharibənin ilk günündən minlərlə azərbaycanlı oğlan və qız cəbhəyə yollanmış, onlar bütün cəbhələrdə vuruşaraq Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmişlər. Döyüşə yollanmış 600 mindən çox azərbaycanlının yarıdan çoxu cəbhədən qayıtmamışdır. Leninqradın qəhrəman müdafiəçilərinin sıralarında da azərbaycanlılar kifayət qədərdir. Xalq şairi Məmməd Rahimin "Leninqrad göylərində" poemasının qəhrəmanı hücumçu-təyyarəçi Hüseynbala Əliyevin adını leninqradlılar bu gün də unutmurlar.

Polkovnik A.Qurbaninin dediyi "Torpaq su ilə qarışanda palçıq, qan ilə qarışanda Vətən olar. Bu mənada, Rusiya torpağı da hər bir azərbaycanlı üçün Vətəndir. Çünki bu torpaq uğrunda bizim də ata-babalarımız canlarından keçmiş və onların qanları müqəddəs rus torpağına qarışmışdır" sözlər mərasim iştirakçıları və qonaqlar tərəfindən alqışlarla qarşılanıb. Daha sonra polkovnik A.Qurbani deyib ki, leninqradlılar kimi Azərbaycan xalqı da müharibənin, blokadanın, təcavüzün, işğalın nə demək olduğunu çox yaxşı bilir. Odur ki, bu möhtəşəm mərasimdə də biz sülhə səs verərək, dünyanı sülhə, barışa çağıraraq, hər cür müharibəyə, təcavüzə, işğala, terrora yox deyirik.





Admiral A.A.Komaritsın, Sankt-Peterburq Sosial Siyasət Komitəsi sədrinin müavini S.K.Qurov, Belorus Respublikasından general-mayor İ.V.Lavrinenko, Yunanıstandan Konstantinos Gabaeridis, Hərb-tarixi dəniz ekspedisiyasının sədri V.N.Pronorov və başqaları çıxış ediblər.

Abidənin rəmzi açılışını bildirən lent kəsilib və bir dəqiqəlik sükut elan edilib. Abidə qarşısına nümayəndələrimiz Azərbaycan Respublikasının adından əklil qoyublar. "Slavyanka marşı"nın sədaları altında hərbçilər abidə qarşısından keçərək ehtiramlarını bildiriblər.

Təntənəli mərasim bağlı elan edildikdən sonra hamı Varonka çayı sahillərinə yollanıb. Burada yüzlərlə hərbçinin və aktyorun iştirakı ilə Oranienbaum platstdarmı müdafiəsini əks etdirən səhnələr canlandırılıb. Xatirə abidələri, məzarlar ziyarət olunub.

Mərasimin sonunda Fin körfəzi sahilində təşkil edilən məclisdə rəhbərlik Azərbaycandan gəlmiş Müdafiə Nazirliyi nümayəndələrinin, eləcə də Sosnovıy Bor rayonunda yaşayan azərbaycanlıların möhtəşəm vətənpərvərlik tədbirində fəal iştirakını xüsusilə vurğulayıblar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Şəxsi heyət müsbət nəticə göstərir

***<u>Təlim keçirilən geniş sahəni gəzib zabit və əsgərlərlə görülən hazırlıq işləri və qazanılan uğurlarla tanış oluruq. Zenit-raket taqımının şəxsi heyətinin yanından xoş təəssüratlarla ayrılıb artilleriyaçıların yerləşdiyi istiqamətə üz tuturuq.</u>***

Artilleriya qurğuları bir xətt boyunca düzülüb. Topların uzun və geniş lülələri hədəfə tuşlanıb. Zabit və əsgərlər atəş açmağa hazır dayanıblar.

- "Təlimdə tər tökən-döyüşdə qan tökməz" Bu hikmətli, dəyərli sözlər dəfələrlə tarixin sınaqlarından çıxıb, - deyə polkovnik-leytenant Etibar Orucov bizi burada qarşılayaraq sözə başladı. - Hərbi hissəmizin şəxsi heyəti keçirilən irimiqyaslı təlimlərdə fəal iştirak edir. Topçularımız hədəfləri dəqiq və vaxtında vuraraq, müsbət nəticələr göstərirlər. Təbiidir ki, qazanılan uğurlar bizi arxayınlaşdıra bilməz. Zabit və əsgərlərimiz daim bilik və bacarıqlarını artırırlar. Əminəm ki, başqa təlimlər kimi bugünkü təlimlər də artilleriyaçılarımız üçün uğurla başa çatacaqdır.

Atışın idarə olunmasının təşkili məntəqəsinə gəlirik. Burada da gərgin işlər gedir, hər bir zabit və əsgər öz üzərinə düşən vəzifələri yüksək peşəkarlıqla yerinə yetirir.



Mayor Seymur Hüseynov bildirir ki, zabit və əsgərlərimiz təlim prosesində qarşıya qoyulan tapşırıqları məharətlə yerinə yetirirlər. Onlar döyüşçü üçün zəruri olan vərdişləri yaxşı mənimsəyiblər. Hazırda biz baş zabitlərdən verilən göstərişləri yerinə yetirərək hədəfləri müəyyənləşdirir, onlara qədər olan məsafələri düzgün hesablayıb yoxlayırıq, sonra isə artilleriyaçılara müvafiq komandalar veririk.

...Təlim davam edir. Bir an olsun belə rabitə qurğuları susmur. Yeni tapşırıqlar, əmrlər verilir, hesablamalar aparılır. Döyüş hazırlığı yüksək olan təlim iştirakçıları isə bu tapşırıqları dəqiq, düzgün yerinə yetirməyə çalışırlar.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Bakı 2015-ci ildə Avropanın 10 ən maraqlı məkanının siyahısına düşüb



Dünyanın görməli yerləri üzrə soraq kitabçaları buraxılışı üzrə ixtisaslaşan "Lonely planet" nəşriyyatı Avropanın ən maraqlı məkanlarının siyahısını təqdim edib. Nəşriyyat bu haqda məlumatı öz rəsmi saytında yerləşdirib.

AZƏRTAC Newsland saytına istinadla xəbər verir ki, həmin siyahıda birinci yeri İslandiyanın Akyureyri şəhəri, ikinci yeri Almaniyanın Leypsiq şəhəri tutur.

Reytinq tərtibçiləri bu siyahıda üçüncü yeri Portuqaliyanın Azor adalarına veriblər. Keçmiş Sovet İttifaqı məkanındakı ölkələrdən bu reytinqə daxil edilmiş yeganə şəhər Azərbaycanın paytaxtı Bakıdır. "Lonely planet" nəşriyyatının tərtib etdiyi siyahıda paytaxtımız 7-ci yeri tutur.

### İslandiya dünyada ən sülhsevər ölkədir



"The Economist Intelligence Unit" təşkilatı dünyada ən sülhsevər ölkələrin reytinqini dərc edib. Bu siyahıya daxil edilmiş 162 dövlət arasında 2015-ci ildə ən sülhsevər dövlət İslandiya hesab edilib.

2007-ci ildən etibarən hər il tərtib olunan bu reytinqdə dövlətlər onlarca meyar əsasında qiymətləndirilir: son bir neçə ildə ölkənin iştirak etdiyi müharibələrin sayı, həlak olmuş əsgərlərin sayı, hərbi ehtiyaclar üçün ayrılan vəsaitin həcmi, vətəndaşlar arasında qarşılıqlı etimad, silahların əhali üçün yetərli olub-olmaması və s.

Sülhsevərlik reytinqi ən yüksək olan dövlətlərin birinci onluğuna Danimarka, Avstriya, Kanada, Yaponiya və Çexiya da daxildir. ABŞ 94-cü, Rusiya 152-ci yeri tutur.

### Barak Obama amerikalıları odlu silaha münasibəti dəyişməyə çağırıb



ABŞ polisi Cənubi Karolina ştatının Çarlston şəhərində yerləşən kilsədə törədilən qətldə şübhəli bilinən şəxsi hadisədən bir sutka keçməmiş yaxalayıb.

Euronews telekanalı xəbər verir ki, 21 yaşlı Dilan Ruf əraziyə qanunsuz yolla daxilolma və narkotiklə bağlı artıq iki dəfə polis tərəfindən saxlanılıbmış. Cinayəti törətməzdən qabaq Ruf kilsədə bir saata yaxın vaxt keçirib, daha sonra isə ətrafa atəş açaraq 9 nəfərin ölümünə səbəb olub. Hadisədən sonra bəyanatla çıxış edən ABŞ Prezidenti Barak Obama amerikalıların odlu silaha olan münasibətlərinin dəyişməsinin vacibliyini qeyd edib.

### 2014-cü il ən münaqişəli və qanlı il olub



Bu qənaətə İsveçin Upsala Universitetinin alimləri "Conflict Data Program UCDP" layihəsinin nəticəsi üzrə hesabatda gəliblər.

Alimlərin fikrincə, 2014-cü ildə hərbi münaqişələrin rekord həddi qaçqınların sayının artmasına gətirib çıxarıb. Qaçqınların sayı təxminən 60 milyona çatır ki, onların yarısını uşaqlar təşkil edir.

Keçən il planetin 27 müxtəlif yerində 40 hərbi münaqişə baş verib. Hərbi toqquşmaların qurbanlarının sayı 100 min nəfəri ötüb. Qurbanların çoxu Suriyadakı müharibə ilə əlaqədar olub. Lakin Əfqanıstan, İraq, Nigeriya, habelə Ukraynada silah tətbiqi çoxalıb.

### Almaniya Yunanıstanı avrozonadan qovmaqla hədələdi



Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun və Beynəlxalq Valyuta Fondunun rəhbərliyinin ardınca Almaniya da avrozona ölkələri rəhbərlərini Brüsseldə keçiriləcək görüşü ərəfəsində Yunanıstana ultimatum ünvanlayıb.

AZƏRTAC xəbər verir ki, Almaniya rəhbərliyi Yunanıstanı sərt şəkildə xəbərdar edib: əgər Afina yaxın həftə ərzində kreditorlarla razılığa gələ bilməsə, avrozonanı tərk etməli olacaq.

Bu ərəfədə Donald Tusk da Afinanı seçim qarşısında qoyub: hökumət ya qeyri-ənənəvi iqtisadi islahatların keçirilməsi ilə razılaşacaq və Avropa İttifaqından növbəti 7,2 milyard avro həcmində maliyyə yardımını alacaq, ya da Yunanıstan müflis olduğunu elan edəcək.

### Ermənistanın xarici dövlət borcu ümumi daxili məhsulun 40 faizdən çoxunu təşkil edir



Bu ilin sonunadək Ermənistanın xarici dövlət borcu 4,8-4,9 milyard dollara çatacaq.

Bunu ölkənin maliyyə nazirinin müavini Atom Cancığazyan bəyan edib. Nazir müavini bildirib ki, Ermənistanın xarici dövlət borcu 2013-cü ildə 4,2 milyard dollar, ötən il isə 4,4 milyard dollar olub. Ötən il xarici dövlət borcu ölkə üzrə ümumi daxili məhsulun 40,4 faizini təşkil edib.

### ABŞ: bir gecədə iki atışma



ABŞ-ın Pensilvaniya ştatında naməlum şəxs piknikə toplaşmış insanlara nizamsız şəkildə atəş açıb.

AZƏRTAC xəbər verir ki, hadisə nəticəsində yeddi nəfər zərər çəkib. İnsident Filadelfiya şəhərinin qərb hissəsində yerli vaxtla saat 22 radələrində baş verib. KİV-in məlumatına görə, zərər çəkənlər arasında 2 və 10 yaşlarında iki uşaq da var. Onların ağır vəziyyətdə xəstəxanaya yerləşdirildiyi bildirilir. Digər yaralılar 15-25 yaş arasındadır.

Demək olar ki, eyni vaxtda Detroyt şəhərində (Miçiqan ştatı) də oxşar hadisə baş verib. Orada naməlum şəxs basketbol meydançasında şənliyə yığışmış insanlara atəş açıb. Bir nəfərin öldüyü, azı doqquz nəfərin isə güllə yarası aldığı barədə məlumat yayılıb.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

*26 İyun - Silahlı Qüvvələr Günüdür*

# "Ordu quruculuğunda qəhrəmanlıq ənənələrinin təbliği zəruridir"



***Azərbaycan Hərb Tarixi Muzeyində Silahlı Qüvvələrimizin 97-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Müdafiə Nazirliyinin idarə və hərbi təhsil müəssisələrinin, veteran təşkilatlarının, hərbi hissələrin, şəhər muzeylərinin nümayəndələri, digər qonaqlar iştirak ediblər. Ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla anıldıqdan sonra Dövlət himni oxunub. Muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə tədbiri açıq elan edərək "Vətənimizin dayağı, xalqımızın fəxri - milli ordumuz" mövzusunda məruzə ilə çıxış edib.***

"Ordu dövlətin suverenliyini, onun ərazi bütövlüyünü təmin etmək üçün əsas qüvvə və dövlət quruculuğunun ən mühüm tərkib hissələrindən biridir" fikrini diqqətə çatdıran Ə.Qənizadə məruzəsində Azərbaycanda ordu quruculuğu məsələlərinə geniş yer ayırıb. Məruzəçi bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından bir müddət sonra, 1918-ci ilin 26 iyununda Əlahiddə Azərbaycan Korpusunun yaradılması ilə təməli qoyulmuş müasir Azərbaycan Silahlı Qüvvələri çətin, amma şərəfli bir inkişaf yolu keçmişdir. Silahlı Qüvvələrimizin yaradılmasından ötən bu illər ərzində ordumuzun imkanlarının genişləndirilməsi və peşəkar hərbi kadrların hazırlanması sahəsində böyük işlər görülüb. Natiq məruzəsində ulu öndər Heydər Əliyevin ordu quruculuğu sahəsindəki xidmətlərindən, ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin orduya diqqət və qayğısından danışaraq fəxrlə qeyd edib ki, Silahlı Qüvvələrimiz son illərdə regionda öz sözünü deməyə qadir olan ən qüdrətli hərbi gücdür və düşmən işğalında olan torpaqlarımızı azad etməyə tam qadirdir.

Azərbaycanda ordu quruculuğu ilə bağlı nümayiş olunan sənədli film qonaqlarda Silahlı Qüvvələrimizin ərazilərimizi erməni işğalından azad etməyə qadir olduğuna əminlik yaradıb.



Çıxış üçün söz alan Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik-leytenant Əfqan Əliyev muzeydə keçirilən tədbirlərin əhəmiyyətindən bəhs edərək ordu quruculuğunda xalqımızın qəhrəmanlıq ənənələrini, tariximizi təbliğ etməyin zəruriliyini vurğulayıb.

Əlamətdar günlə bağlı nümayəndələrin çıxışları dinlənildikdən sonra tədbirin rəsmi hissəsi başa çatıb.

Sonda açıq səma altında Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının kollektivinin təşkil etdiyi rəngarəng konsert proqramı qonaqlarda yüksək bayram əhval-ruhiyyəsi və xoş ovqat yaradıb.

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

# Unutmayaq!

*1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:*

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# "Qələbəmizə inam böyükdür"

***"Əsgər Ailələrinə Dəstək" İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Vətənpərvərliyin təbliği mövzusunda ictimai tədbirlərin təşkili" layihəsini uğurla davam etdirir.***




Layihənin əsas məqsədi sərhədyanı bölgələrdə və təmas xəttində təhlükəsizlik, valideynlərin əsgərlərin sosial durumu ilə tanışlığı və KİV-də hərbi dezinformasiyanın qarşısının alınmasıdır.

Layihə çərçivəsində "Əsgər Ailələrinə Dəstək" İctimai Birliyi "N" hərbi hissəsində "Birinci Avropa Oyunları, ictimai davranış qaydaları və ictimai nəzarət" mövzusunda tədbir keçirib. Tədbirdə İctimai Birliyin sədri, layihənin rəhbəri Mətanət Əsgərqızı, QHT rəhbəri Radə Abbas və əsgər valideynləri iştirak ediblər.

M.Əsgərqızı Avropa Oyunları kimi mötəbər tədbirin Azərbaycanda keçirilməsinin ölkəmiz üçün böyük uğur olduğunu bildirib: "Qələbə və uğurlarımız bizi sevməyən qüvvələrdə qısqanclıq hissi yaradır, amma xalqımız hər zaman olduğu kimi qonaqpərvərlik nümayiş etdirir, dünyanın diqqət mərkəzinə çevrilir. Azərbaycanın idmanda qazandığı uğurların Qarabağda təkrarlanacağına inanır, hər kəsi daim haqq işimizin müdafiəsində dövlətimizin, Prezidentimizin yanında olmağa səsləyirəm".

İctimai Birliyin rəhbəri son vaxtlar Silahlı Qüvvələrimizdə həyata keçirilən islahatlardan, əsgərlərin sosial qayğılarına göstərilən diqqətdən danışıb.



QHT rəhbəri Radə Abbas, şəhid Natiq Abdullayevin bacısı Sədaqət Fərzəliyeva, şəhidin oğlu Cavid Abdullayev və əsgər valideynləri belə tədbirlərin önəmindən söz açıb, hər bir Azərbaycan vətəndaşının qələbəyə böyük inam bəslədiyini dilə gətiriblər.

Tədbirin təşkilinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıq ifadə edilib.

**"Azərbaycan Ordusu"**

*Publisistik düşüncələr*

# Simurq quşu

Uzun qış gecələrində nənələrimizdən, babalarımızdan "Məlikməmmədin nağılı"nı dəfələrlə eşitsək də, doymazdıq. Məlikməmmədin özü qədər də onu işıqlı dünyaya çıxardan Simurq quşuna vurulmuşduq; mifik obraz olduğunu anlamasaq da, onun igidə can yandırması bizə könül xoşluğu verərdi. Sonralar anladıq ki, Simurq quşu xalqın arzusunu, istəyini ifadə edirmiş, əfsanəvi varlıq kimi çətinə, dara düşənlərin qurtuluşu olurmuş...

Simurq mifoloji obrazlıqdan həyati obraza, nağıllardan reallığa çevrildi...

Kiminsə imdadına çatma, kimisə dardan xilas etmək Simurqlaşmadı. Bəzən özü, bəzən ruhu çatır insanın köməyinə. O insanların ki, cəmiyyətin durumuna, inkişafına xeyri dəyir. Simurqlaşanlar həmişə olub, var, olacaq da...

Böyük zamanlar keçsə də, xalqın mifoloji düşüncəsi kökündən üzülmür. "Ağ atlı oğlan" bədii filminin ideyası da nicat, qurtuluş istəyindən rişələnib. 12-13 yaşlı Murad xalqın adından inamla deyir: Ağ atlı oğlan (Simurq) gələcək!

O vaxtlar "Çətinə, dara düşənlərə qurtuluş olan Simurq quşu qol-budağı qırılan ağaca, suları quruyan bulağa, ləçəyi didilən gül-çiçəyə, yaralanan daşa-torpağa da can yandıra bilərmi?" kimi bir sual haqqında düşünməzdim, indi düşünürəm...

İllər sonrası Ermənistan Azərbaycanımızdan torpaq iddiasına düşdü. Daha doğrusu, on illərlə gizlin saxladığı niyyətini aşkarladı. Əvvəl Naxçıvanı, sonra Qarabağın dağlıq hissəsini işğal etmək üçün müharibəyə başladı. Məlikməmmədlər - igidlər, qəhrəmanlar Simurq quşunun missiyasını yerinə yetirirdi. Tərtərdə Vəzir Orucov, Ağdamda Şirin Mirzəyev, Ağdərədə Yusif Mirzəyev, Şuşada Ramiz Qəmbərov, Gədəbəydə İsgəndər Aznaurov, ...

1993-cü ilin yanvarında ikinci Kəlbəcər əməliyyatına nə qədər ümidliydik!..

Murovdağdan, Ömər aşırımından üzü Kəlbəcərə hücuma keçən döyüşçülərimizin qətiyyətini, cəsarətini görüncə, düşmən geri çəkildi, əslində qaçdı. Hərbi qanunlara müvafiq olaraq döyüşçülərimiz onları təqib elədi. Yanşaqda "daş qayaya rast gəldi". Cinahlar ləngidiyindən vəziyyət gərginləşdi, düşmən dirəşdi; döyüşçülərimizin tam mühasirəyə düşmək təhlükəsi yarandı...

Sahib Aslanov (indi Qarabağ müharibəsi əlilidir) hospitalda müalicə olunurdu. Kəşfiyyat rəisi idi. Əsgərlərinin mühasirəyə düşdüyünü eşidəndə, çox düşünüb-daşınmadı, heç kimə heç nə demədən Murovdağa, Ömər aşırımından keçməklə Yanşağa getmişdi ("getmişdi" fikrini ifadə eləməyə daha uyarlı söz tapa bilmədim). Düşmənlərin nəzarətindən yayınmaqla, kəşfiyyatçı intuisiyası ilə. Tək-tənha. Ürəyinin hökmü ilə. Vətən sevgisinə tapınmaqla. Əsl komandir kimi...

Mühasirəni yarmağın çətin olacağını qətiləşdirəndə qəlbinə qan daman Sahib Aslanov döyüşçülərin yanına Simurq missiyası ilə getmişdi. Onların yeganə xilas yolu dağlardan keçəcəkdi. Sıralarında dağlara, dağlıq şəraitə bələd olan zabit, əsgər yox idi...

Sahib Aslanov 70-dən çox döyüşçünü ağ qarda, göy buzda Daşkəsən istiqamətindən aparmağa qərar vermişdi. Böyük məsuliyyət idi. Beş-on gün bundan əvvələ kimi döyüşə həvəsləndirdiyi əsgərlərə nə deyəydi? Necə deyəydi ki, atışmadan uzaqlaşmalıyıq? Nə özü günahkarıydı, nə də döyüşçülər. Aylarla cəsarətinə, qətiyyətinə, vətənsevərliyinə bələd olduğu döyüşçülərə baxdı. Çarəsiz baxış olsa da, baxdı və ehtiyatla irəlilədilər...

Sazaqda, düşmənin duyuq düşüb onları atəşə tutma ehtimalı da vardı. Ən təhlükəlisi qar uçqunu idi. Xırda bir ehtiyatsızlıq hamısının ölümünə səbəb ola bilərdi - yaxınlıqlarına bircə mərmi düşsəydi, hamısı qar uçqunu altında qalardı...

Sıralarında yaralı da vardı, xəstə də...

Hacıkəndə çatanacan Sahibin nələr çəkdiyini ifadə eləməyə söz tapmaq mümkün deyil; ayağı sürüşən, soyuqdan-şaxtadan titrəyən, əl-ayağını don vuran, sovuşmaq bilməyən həyəcan...

Goranboy əməliyyatında, Ağdərə əməliyyatında, ayrı-ayrı mövqelər uğrunda aparılan neçə-neçə əməliyyatda əvvəllər yerli müdafiə batalyonlarının, sonralar nizami ordumuzun döyüş qabiliyyəti Ermənistan ordusuna hətta mövqe qələbəsi qazanmağa da imkan vermirdi. "Mən" "biz"i, tamah vicdanı üstələyəndən sonra öz torpağımızda sərhədlərin iç tərəfində səngərlər yarandı, səngərlərin o üzü, bu üzü yarandı. Səngərin o üzü də bizim torpaqdı, bu üzü də. Öz torpağımızdan öz torpağımıza baxırıq. Səngərin bu üzü vətənpərvərliyin, o üzü işğalın nəzarətindədi. Hələlik. Səngərlərin bu üzündən o üzünə heysiyyət gözüylə baxanların qəlbinə qan damır, yumruqları düyünlənir. O üzün bət-bənizi qaçıb, hələ də düzəlmir. Nə vaxta kimi belə olacaq?..

"Vətəndən Vətənə baxmaq" (Bəxtiyar Vahabzadə) ağırdı. Səngərin o üzünə Simurq quşu gərəkdi. Simurq quşu gərəkdi ki, bət-bənizi qaçan torpaq "könül qübarını" atsın...

Səngərin o üzü üçün Simurq quşu bu üzündəki əsgərlərin təmasıdı, nəfəsidi. Səngərin o üzü o təması, o nəfəsi duyunca bir boy dikələcək. Simurq quşunun ecazkar qanadları səngərin o üzünü kölgələndirəcək. Onun uçuşu, gəlişi səngərləri müstəqilliyimizi tanıyan dünya dövlətlərinin tanıdığı sərhədlərimizə köçürəcək. Mütləq köçürəcək!..

**Rəşid HÜSEYNOV,
"Azərbaycan Ordusu"**

# Xarici hərbi xronika

## Pilotsuz uçan aparatların pilotsuzlara qarşı mübarizə texnologiyası

Cənubi Koreyada robotların hazırlanması üzrə texnik-mütəxəssislər düşmənin pilotsuz uçan aparatlarına qarşı mübarizə aparmaq üçün yeni texnologiya hazırlayıblar. Yaxın gələcəkdə pilotsuz uçan aparatlar pilotsuzlara qarşı mübarizə aparacaqlar. Bu haqda pilotsuz aparatlar sistemi üzrə qrupun rəhbəri doktor Devid Sim məlumat verib. Sonuncu uçuş sınağı zamanı doktor Sim "düşmən" dronlarını mühafizə edən raketburaxıcı qurğularının zərərsizləşdirilməsi strategiyasını nümayiş etdirib. İlk olaraq kəşfiyyatçı aparat uçacaq. O, öz işini yerinə yetirdikdən sonra, havaya düşmənin pilotsuz uçan aparatlarını zərərsizləşdirən bir neçə qırıcı qalxacaq. Onlar özləri ilə partlayıcı yükü olan yerüstü robotları da götürəcək. Bütün əməliyyatlar avtonom olaraq həyata keçiriləcək.

## "Tayfun"un sınağı keçiriləcək

Bu ilin sonuna qədər "Tayfun" zirehli maşınının istismarı həyata keçiriləcək. O, yüksək mühafizəyə malik olan zirehli maşındır. "Tayfun" zirehli avtomobillər ailəsinin bir hissəsi sayılır. Maşın 2020-ci il müddətinə Rusiya Silahlı Qüvvələrinin hərbi avtomobil texnikasının inkişafı üzrə təsdiq olunmuş proqram əsasında hazırlanıb.

## Bölməni istehkamçı-robotlar əvəz edəcək

Rusiya qoşunlarının silahlanmasına "Uran-6", "Malış" adlı istehkamçı-robotlar daxil ediləcək. "Uran-6" istehkamçı-robotu "766 UPTK" müəssisəsi tərəfindən hazırlanıb və onun əsas mütəxəssisi Andrey Çekulayevdir. Özünün söylədiyinə görə, bu, onun ilk təcrübə işidir, bu işlərə 2013-cü ildə başlayıb və səhra sınağını həyata keçirib. Maşın sınaq müddətində çətin keçilən daş-kəsəkli yolları dəf edə bilib. Bu ağır sınağın nəticələri istehkamçıları daha da təəccübləndirib. Sınaq zamanı heç bir mina gözdən yayınmayıb.

10 gün ərzində isə digər "Malış" istehkamçı-robot qırx min kvadrat metrlik ərazidə 20 kiloqramdan çox döyüş ehtiyatını məhv edib və ərazini partlayış təhlükəsi yaradan əşyalardan təmizləyib.

## Yeni təlim təyyarəsi quraşdırılacaq

Textron Airland Amerika şirkəti yeni təlim təyyarəsinin hazırlanması barədə məlumat verib. Təyyarə Soorpion hücum təyyarəsi əsasında hazırlanacaq. Verilən məlumata görə, təyyarənin hazırlanması o qədər də vaxt aparmayacaq və bununla şirkət dünya bazarına çıxmaq niyyətindədir.

Textron Airland şirkətinin vitse-prezidenti Stiven Berkin sözlərinə görə, təyyarə modul sxem əsasında hazırlanıb və bununla təyyarənin hazırlanmasında o qədər də dəyişiklik edilməyəcək. Burada digər maşınlarda olduğu kimi, dartıcı ilə birlikdə iki reaktiv mühərrikdən istifadə ediləcək. Onun qanadları əvvəlkilərdən qısa - 14.4 metrə qədər, uzunluğu isə 13,3 metr olacaq. Sürəti saatda 833 kilometrə qədərdir.

**Hazırladı:
Svetlana YUSUBOVA,
"Azərbaycan Ordusu"**

*Fiziki hazırlıq*

# Birincilik gərgin keçdi



Əlahiddə Ümumqoşun Ordusunda idmanın inkişafı istiqamətində həyata keçirilən əməli tədbirlərin nəticəsidir ki, şəxsi heyət fiziki hazırlıq dərslərinə, kütləvi idman tədbirlərinə, hərbi qulluqçular arasında təşkil olunan yarış və birinciliklərə yüksək səviyyədə cəlb olunur. Təbii ki, bütün bunlar da hərbi qulluqçuların asudə vaxtlarının səmərəli təşkilinə, onların fiziki sağlamlıqlarının inkişaf etdirilməsinə geniş imkanlar açır. "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunan kütləvi idman tədbirlərindən biri kimi Əlahiddə Ümumqoşun Ordusu üzrə hərbi hissələr arasında futbol birinciliyi keçirilib.

Futbol güclü idmançı və komandaların müəyyən edilməsi məqsədi ilə təşkil olunan birincilikdə 13 komanda mübarizə aparıb.

Əlahiddə Ümumqoşun Ordusunun fiziki hazırlıq və idman bölməsinin rəisi mayor Vahid Məmmədovun rəhbərlik etdiyi yarışa Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının hakimləri nəzarət ediblər. Oyunları izləyən zaman Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının sədr müavini Hafiz Əliyevlə həmsöhbət oldum. Müsahibim hərbi qulluqçuların oyunlara hazırlıq səviyyələrinə nəzər salaraq bildirdi ki, belə mükəmməl oyunları biz ancaq peşəkar futbol komandalarının yarışlarında görə bilərik. O, qələbə uğrunda gərgin mübarizədə hər bir komandaya uğurlar arzulayıb.

Futbol birinciliyinin yekununda şəxsi heyətin bu cür tədbirlərə daha fəal cəlb olunması üçün layiqli yer tutanlar fəxri fərman, kubok və qiymətli hədiyyələrlə mükafatlandırılıblar. Qaliblərin təltif edilməsi Əlahiddə Ümumqoşun Ordusunun Komandanlığı tərəfindən həyata keçirilib.

**Nəriman NƏCƏFOV,
Naxçıvan**

# BMT-nin baş katibi Dağlıq Qarabağ münaqişəsinin indiyədək həll olunmamasından narahatlığını bildirib

***BMT-nin baş katibi Pan Gi Mun Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yay sessiyasının plenar iclasında çıxışından sonra parlamentarilərin suallarını cavablandırıb.***

Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Sevinc Fətəliyeva baş katibə sualında əvvəlcə Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən zəbt olunduğunu, BMT Təhlükəsizlik Şurasının bu məsələ ilə əlaqədar dörd qətnamə qəbul etməsinə baxmayaraq, işğalın hələ də davam etdiyini xatırladıb. O, rəsmi Yerevanın bu qətnamələri yerinə yetirməsi üçün BMT-nin hansı tədbirlər görə biləcəyini soruşub.

BMT-nin baş katibi Pan Gi Mun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin indiyədək həll olunmamasından narahatlığını bildirib. O, münaqişənin yalnız sülh yolu ilə həllinin tərəfdarı olduğunu söyləyib. Baş katib cəbhə xəttində atəşkəsin mütəmadi olaraq pozulmasının, hər iki tərəfdən insan itkilərinin baş verməsinin onu narahat etdiyini deyib. O, hər hansı hərbi qarşıdurmanın iki ölkə və ümumilikdə bütün region üçün ağır nəticələrə gətirib çıxaracağını qeyd edib.

Pan Gi Mun deyib: "Bu münaqişənin həlli ilə ATƏT-in Minsk Qrupu məşğul olur. Burada əsas ideya tərəflər arasında dialoqun aparılması və davamlı həllin əldə olunması üçün səylərin davam etdirilməsidir".

**AZƏRTAC**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 555
Nüsxə 4600